ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 5. CİLT, 2. SAYI, 2021, 273 - 279. S., TÜRKİYE

https://doi.org/10.30563/turklad.999961

İntihal / *Plagiarism*

*This article was checked by* turnitin programında bu məkalə taranmıştır

Məkale Bilgisi / *Article information*

Məkale Türü / *Article types* : Araştırma Məkalesi / *Research article*
Geliş Tarihi / *Received date* : 23.09.2021
Kəbul Tarihi / *Accepted date* : 08.12.2021
Yayın Tarihi / *Date published* : 20.12.2021

Atıf / *Citation*

Asker, N. (2021). "Koroğlu" Dastanında Düşmən Obrazları. *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD)*, 5. Cilt, 2. Sayı, 273-279.

# "KOROĞLU" DASTANINDA DÜŞMƏN OBRAZLARI

*Images of the Enemy in the Koroglu Saga*

**NAİLE ASKER**[1]

## Öz

Türk xalq ədəbiyyatının həcminə görə ən böyük epik əsəri dastanlardır. Dastanlar bədii-obrazlı bir dillə tarixi hadisə və qəhrəmanlıqları dövrümüzə daşımışdır. Bu baxımdan türklərin və onlarla qonşu xalqların yaddaşında dərin yer etmiş dastanlardan biri də "Koroğlu" dastanıdır. Dastan təşəkkül dövrünün qədimliyinə və yayılma arealının genişliyinə görə iki böyük versiyaya ayrılmışdır. Şərq və Qərb versiyaları adlanan bu versiyalar daxilində dastanın beş yüzə yaxın variantı mövcuddur. "Koroğlu" dastanının Azərbaycan və türkmən variantları, demək olar ki, hər iki versiyanı əhatə etdiyi üçün bu variantların problemlərinin öyrənilməsi bütün dastanı öyrənmək baxımından əhəmiyyət kəsb edir.

Bu məqalədə "Koroğlu" dastanının Azərbaycan və türkmən variantlarınında yer alan qəhrəmanlar müsbət və mənfi cəhətləri ilə müqayisəli olaraq təhlil edilir, düşmən obrazları haqqında bilgi verilir.

**Açar sözlər:** "Koroğlu" dastanı, qəhrəman, düşmən orbazı, türkmən, dastan

## Abstract

Epics are the largest heroic themed works of Turkish folk literature. These works have brought historical events and heroism to our time in an artistic and figurative language. From this point of view, one of the epics that has a deep place in the memory of the Turks and dozens of neighboring peoples is the Koroglu Saga. The saga is divided into two major versions due to the antiquity of the formation period and the breadth of its distribution area. There are about five hundred versions of the saga in these versions, called the Eastern and Western versions. Since the Azerbaijani and Turkmen versions of the Koroglu Saga cover almost both versions, the study of the problems of these variants is important in terms of studying the whole epos.

[1] Doç. Dr., Dicle Üniversitesi, Diyarbakır/TÜRKİYE. El-mek: qaracantali@live.com
ORCID ID: https://orcid.org/0000-0002-4723-1135

This article compares the heroes of the Azerbaijani and Turkmen versions of the Koroglu Saga with their pros and cons, and provides information about the images of the enemy.

**Keywords:** Koroglu Saga, hero, enemy orbaz, Turkmen, epos

## Giriş

Bütün qəhrəmanlıq dastanları kimi, "Koroğlu" dastanında da əsas qəhrəmanın və onun igidlərinin düşmən obrazlarla qarşılaşması ölüm gətirən döyüşərlə nəticələnir. Bu düşmənçiliyin səbəblərini isə bir çox hallarda müxtəlif qohum boylar, dinlər və ya məzhəblər arası münaqişə, vətənin müdafiəsi – hücum vaxtı düşməni geri oturtmaq, hakimiyyət üçün mübarizə, qənimət əldə etmək və s. kimi səbəblər göstərmək mümkündür. Türkmən və Azərbaycan versiyalarının bütün variantlarında bu bir az fərqli müstəvilərdə olsa da Koroğlu magik güclərə sahib olan mərd bir igid, yadelli və daxili düşmənlərə qarşı yurdunu və xalqını müdafiə edən cəngavər, eyni zamanda vergili aşıq və şairdir. O alınmaz qalası Çənlibeldədir, Qıratın belindədir və sehirli silahları ilə düşmənin qarşısındadır. Koroğluya güc verən, onu daim düşmən üzərində qələbəyə götürən sahib olduğu bu dəyərləri və qəhrəman silahdaşlarıdır.

Koroğlu türkmən variantlarında daha çox yadelli düşmənə qarşı vuruşur, o, bəzən cunqarlarla, bəzən kalmıklarla (oyrat), bəzən də fars və ərəblərlə mübarizə aparan bir qəhrəmandır. "XVI əsrdən başlayaraq Orta Asiya xalqlarının epik hekayələrində kalmık və qızılbaşlar, rus dastanlarında tatarlar kimi bu xalqların tipik düşməninə çevrilir. Daha sonralar epik ənənə məşhur tarixi qəhrəmanın adına öz düşmənlərinə qarşı döyüşlərdə şablon xarakter daşıyan igidlikləri şamil edir" (Jirmunski, 1974: 397). "Koroğlu"nun Şərq variantında əsas düşmənlərindən olan cunqarlar Cunqar xanlığında birləşirdi. Bu xanlığın etnik tərkibi əsasən monqol tayfalarından derbetlər, torqoutlar, xoşoutlar, çoroslar və sairlərdən ibarət idi.

"Qazaxlar arasında olan və toplanmış mətnlərdə Orta Asiyada qazaxlar ilə cunqarlar arasında cərəyan edən tarixi mübarizələrlə yanaşı, kalmıklar ilə ərəblərin fəthləri vaxtı olan müharibələrin dərin izləri də yer tutur" (Yıldırım, 1998: 11).

Azərbaycan variantlarında Koroğlu qacaq statusunda təsvir olunmuşdur. Ona görə də o, hakimiyyətə, yəni şahlara, paşalara qarşı mübarizə aparır, yoxsul, əzilən xalqın yanındadır. Bununla belə, bəzi motiv və epizodlarda qəhrəmanın siyasi və ideoloji qarşıdurmalarda iştirak etdiyi də görünür. Koroğlu paşalarla, onların qoşunları ilə, sərkərdələri ilə mübarizə apardğı üçün dastanda qəlibləşmiş düşmən obrazlarına rast gəlməyimiz normaldır. Belə obrazlardan biri də dastanın, demək olar ki, bütün variantlarında rast gəldiyimiz Ərəb Reyhan obrazıdır.

1908-1909-cu illərdə Makar Qaraxyan tərəfindən Eçmiədzində (*Üçmüəzzin – N.Ə.*) toplanmış "Koroğlu" başlıqlı dastanda yer alan "Eyvaz Bolu" qolunda da Ərəb Reyhan xarakterinə rast gəlirik. Lakin bu qolda Ərəb Reyhan düşmən kimi deyil, dost kimi təsvir olunur. "Eyvaz Bolu" qolunun maraqlı epizodlarından biri də Koroğlunun Ərəb Reyhanla qarşılaşması səhnəsidir. Süjetdən aydın olur ki, Ərəb Reyhan da Koroğlu kimi cəngavər, igid, yenilməz biridir. Onun atı Alapaça da su çinsindəndir, hətta Qıratdan da üstün keyfiyyətlərə malikdir. Ərəb Reyhanda igidliklə bərabər, mərdlik də vardır. O, Koroğlunu tapsa da, onunla döyüşmək, öz gücünü ona göstərmək istəmir. Lakin Ərəb Reyhanı Koroğlunun üstünə Murad şah göndərdiyi üçün ona vuruşma haqqında, Koroğlunu məğlub etdiyi haqqında məlumat verməlidir. Ərəb Reyhan xeyli götür-qoydan sonra vəziyyətdən çıxış yolunu tapır. Koroğluya bildirir ki, onu yaralasın, geri qayıdıb deyər ki, məğlub oldu. Ərəb Reyhanın sədaqətini, mərdliyini görən Koroğlu onun təklifi ilə razılaşmır. Nəticədə Ərəb Reyhan xəncərlə özünü yaralayıb geri dönür (Abbaslı, 2009: 153-154).

Ərəb Reyhan obrazı Azərbaycan variantlarında bu qədər dostcasına təsvir edilməsə də bir çox məqamda onun mərd, iğid, cəsur olduğu vurğulanmışdır. Türkmən variantlarında isə o,

tamailə mənfi obraz kimi qarşımıza çıxır. Azərbaycan variantında "Koroğluynan Ərəb Reyhan" və ya "Koroğlunun Qars səfəri" adlanan qolda Koroğlu Qarsda mühasirəyə düşdüyü üçün onu qurtarmağa gələn Eyvaz Ərəb Reyhanla təkbətək meydana çıxır və ona qalib gəlir. Maraqlı cəhətlərdən biri də budur ki, fərqli versiyalara bağlı olsa da, türkmən və Azərbaycan variantlarında Ərəb Reyhanı Koroğlu deyil, onun oğlu Eyvaz öldürür.

"A.Xodzko mətnində Ərəb Reyhan türk paşasının baş sərkərdəsi, Qars paşalığının hökmdarıdır. O, paşanın qızının arxasınca gələn Koroğlunun mühasirəyə alıb əl-qolunu bağlamağı əmr edir. Lakin çətin anda Eyvaz 40 igidlə Koroğlunun köməyinə gəlir, Ərəb Reyhanın qəzəblı görkəmi igidlərin canına vahimə salır, təkcə Eyvaz sona qədər mərdliklə vuruşur və qalib gəlir. Koroğlu Eyvazın qələbəsindən sevinir, onun şərəfinə Cənlibeldə böyük şadlıq məclisi düzəldir" (Nəbiyev, 2006: 506).

"Koroğlu" dastanının türkmən variantlarında da ərəb düşmən obrazı geniş yer almışdır. Qərb variantlarından fərqli olaraq, burada iki ərəb surəti yer alır. Bunlar iki qardaş olan Ərəb Reyhan və Reyhan ərəbdir. Reyhan ərəb dastanda daha aktiv roldadır, o, Ərəbistan ölkəsinin padişahıdır. Dastanın ilk qolunda bu qəhrəmanla qarşılaşırıq, onun Şirvan şahının qızı Gülənnamla evləndiyini bilirik. Ancaq bir qarışıqlıq nəticəsində o, Gülənnamla yolda ayrı düşür və onu itirir. Gülənnamı səhrada tapan Koroğlunun atası Adıbəy onu evə gətirir. Kiçik Rövşənin böyüməsində, yetişməsində çox böyük rolu olan bu qadın onun əmisi Mömünlə evlənir. Mömünün ölümündən uzun müddət keçdikdən sonra Reyhan ərəb Gülənnamın yerini öyrənir və onu Ərəbistana qaçırır. Koroğlu və Reyhan ərəb arasındakı düşmənçilik buradan başlayır. Sonrakı qollarda hadisələr davam edir və "Ərəbdən öç alış" adlı qolda Koroğlu mənəvi anası hesab olunan Gülənnamı geri almaq üçün Ərəbistana səfər edir. Ancaq Gülənnam geri dönmək istəmir və Koroğlu onun yerinə Reyhan ərəbin qızı Bibixanımı qaçırır.

Kiçik qardaş Ərəb Reyhan isə Leke şahın (Gürcüstan şahı) sifarişi ilə Koroğlunu öldürmək istəyir. Bu orbaz qara, iricüssəli, qarınqulu və bədheybətdir: "Bu ərəbin boyı minarə kimi, kəlləsi günbəz kimi, ağzı ocaq kimi, dişləri kürək kimi, saqqalı kəlləyə vurulan söyüt kimi"dir (Göroglı, 1990: 338).

Dastanın müxtəlif qollarında və variantlarında Reyhan ərəb və qardaşı eyni şəkildə təsvir olunur. Bir oturuma bir dəvəni yeyən, bir addımını on beş addım yerində atan, doqquz qarış bığları olan ərəb orbazı yadelli düşmən tipidir. Ə.İnan "Tarixdə və bu gün şamanizm" adlı əsərində (İnan, 2000: 40) ərəbi fiziki olaraq da Erlikə bənzədir. O, qaranlığın və qara rəngin simvoludur. Erlikin gözləri, qaşları və saçları kömür rəngində tünd qara, uzun, dizlərinə çatan haça uclu saqqallı, qaban dişli, qara bığları qulaqlarına qədər olaraq təsvir edir. Bu təsvirlərin bir çoxu dastanda ərəb düşmənlər üçün də istifadə olunmuşdur.

"Türkmən mətnlərində Reyhan ərəb "üç ay zövqü-səfa içində bəzm edən, qarnını doldurub üç ay yatan, xorultusu ilə dağı-daşı titrədən Ərəbistan sultanı"dır. Onun, "səksən qoyunun dərisindən postu, qırx qoyunun dərisindən tikilən papağı" vardır. "Saqqalı kəllə urlan qara sövüt yalı, ağızları dağın qovagı yalı, murtları kürrän guyrugı yalı (*bığları quyruq kimi - N.Ə.*), burnı susak yalı (*burnu dimdik kimi - N.Ə.*), gözləri kuyı yalı, qulakları tepmeçin tigri yalı (*qulaqları təkər kimi - N.Ə.*), qaşları bir tutum (*qaşları balta kimi - N.Ə.*), kəlləsi tamdır yalı, (*başı dam kimi - N.Ə.*) şemal bilen şagır şagır ses beryen (*külək kimi səsi olan - N.Ə.*)" biridir" (Aslan, 1997: 94).

Dastanda göstərilən ərəb obrazları burada təsadüfi deyildir, çünki Orta Asiyada yaşayan türk qövmləri bəzi dövrlərdə ərəblərlə mübarizə və müharibə etmişlər. Xüsusilə, islam dinini yaymaq üçün bölgəyə axınlar və hücumlar olmuşdur. Bütün bunların xalq yaradıcılığında, xüsusilə qəhrəmanlıq dastanlarında əks olunması təbii bir proses olmuşdur. "Koroğlu" dastanının türkmən variantlarında ərəblərlə bağlı olan, ərəb ləqəbi daşıyan xarakterlərin buradan doğduğu fikri mövcuddur.

Türkmən variantlarında ərəblərdən başqa Koroğlunun vuruşduğu əsas düşmənlər İranlılar /qızılbaşlar olaraq göstərilmişdir. Koroğlu Çandıbilin xanıdır, hakimiyyət qurduğu və yadelli düşmənlərdən qorumaq məburiyyətində olduğu bir ölkəsi var. Yadelli düşmənin əsasən qızılbaşlılar olaraq göstərilməsi də əslində orta əsrlər türkmən dastançılıq ənənəsinə məxsus olan bir elementdir. "Türkmən, özbək, qaraqalpaq və başqa türk boylarının dastanlarında qızılbaş tiplər yer alır və sünnü xarakterli qəhrəmanlar düşmən olaraq gördükləri qızılbaş tiplərlə mübarizə aparırlar. Orta Asiya türk dastanlarındakı qızılbaş və ərəb tiplər Türkmənistan bölgəsi başda olmaqla, Orta Asiya türkləri ilə İran və ərəb xalqları arasında aparılan döyüşlərin əks olunmasıdır. Xüsusilə Koroğlunun döyüşdüyü bir çox düşmən İran və ya ərəb mənşəlidir. XVI əsrdən etibarən şiddətlənən İran-Orta Asiya döyüşləri şiə-sünnü mübarizəsi halını alır. Orta Asiya türk dastanlarında qızılbaş tiplərin yer almasında və Koroğlunun asi, yağmaçı tip olmasında bu tarixi zəminin təsiri böyükdür" (Şahin, 2012: 226-227).

"Koroğlu" dastanının türkmən variantlarında Koroğlu məzhəb olaraq sünnüdür, amma qızılbaşlarla olan savaşları dini təəssübkeşlikdən daha çox maddi qazanc, xərac və iqtidar ehtirası üzərində qurulmuşdur. Burada "qızılbaş" demək düşmən deməkdir. Buna görə də "qızılbaş ölkəsi" düşmən ölkəsi, "qızılbaş hökmdarı" düşmən hökmdarı, "qızılbaş ordusu" düşmən ordusudur. "Koroğlunun bir çox macərasında qəhrəman qızılbaş zorbalarla çətin göyüşlərə girir. Qəhrəmanın həm türk sultanlarına, həm də ərəb feodallarına qarşı mübarizə apardığı bilinir, fəqət İranın çox yaxın olması və türkmən qəbilələrinin Səfəvi Qacar şahları ilə dəfələrlə vuruşması türkmən folkloru və ədəbiyyatında daha çox XVI-XIX əsrlər İran hökmdarları ilə savaşların təsvir edilməsinə səbəb olmuşdur" (Garriyev, 2007: 96).

Dastanda bu hökmdarlarından biri olan Əsən xan Koroğlu ilə dəfələrlə qarşı-qarşıya gəlmişdir. Koroğlunun tez-tez düşmən ölkəyə basqına çıxması, karvanların yolunu kəsməsi, xərac alması bu hökmdarı zinhara gətirmişdir. Başqa bir qızılbaş hökmdarı isə Nəhən şahdır. Bundan başqa, qızılbaş sərkərdəsi Mustafa bəy də dastanın "Övəzi qaçıran" qolunda iştirak edir. Mustafa bəyin Koroğlu ilə təkbətək döyüşündə iki cəngavərin döyüş sənətinin bütün incəlikləri təsvir edilmişdir: at üstündə, piyada, qılınc-qalxanla, mizraqla olan döyüşlərdə Koroğlu məğlub olur. Koroğlunun kürəyini yerə vuran Mustafa bəy onu öldürmək istəyir. Burada hamisi Həzrət Əlinin köməyi ilə Koroğlu düşməndən xilas olur. Koroğlu "mən qızılbaşlar arasında belə mərd insan görmədim" (Göroglı, 1990: 240) deyir və Mustafa bəylə dostlaşır. Dastan söyləyiciləri olan baxşılar bu qəhrəmanı mərd, igid, güclü olaraq təsvir etmişlər. Koroğlunun məğlub edə bilmədiyi bu düşmən obrazı gözəl keyfiyyətləri ilə dinləyicidə rəğbət hissləri oyadır. "Beləliklə, qızılbaşların meydana çıxmasının və dövlət qurmalarının hər şeydən əvvəl, türkmənlərlə əlaqəli olduğu bilinməkdədir. ... Bu vəziyyət qızılbaş hərəkatını, hər şeydən əvvəl, sırf bir türk fenomeni olaraq xarakterizə etməyi tələb edir. Amma türk soyundan gələn hər hansı bir insan da yalnız bu səbəbə görə qızılbaş hesab edilə bilməz. Əvvəla bu adlandırma qızılbaş hərəkatına bağlı olduğu qəbul edilən əsgərlərə verilir və türkmən əsilli insanlar üçün qəbul edilən bir fərqlilik olaraq onlara qırmızı /qızıl başlıq vermək yolu ilə bir üzvülük kimi qəbul edilməsini ifadə edir. Türk olmayan qızılbaşlar da vardır" (Roemer, 1990: 30).

Şərq versiyasına bağlı bir çox variantlarda və o cümlədən türkmən variantlarında düşmən tipləri arasında Bəzirgana (Bəzirgən) da rast gəlinir. "Bəzirgən" qolu Koroğlu ilə Bəzirganın münaqişəsi haqqındadır. Düşmən orbazı kimi göstərilsə də, Koroğlu qırx igidi ilə onunla savaşmağa, xərac almağa getsə də, əslində Bəzirgan Koroğlu ilə düşmən olmaq fikrində deyil. O, dünyanı gəzmək, dolanmaq üçün bəzirganlıq edir. Gürcüstanlı olan Ağbəy oğlu Bəzirgan imkanlı bir ailədəndir. Karvanları Çandıbil ətrafından keçərkən könüllü olaraq Koroğluya xərac verir, amma buna baxmayaraq, Koroğlu bir qarının sözlərinə uyaraq onu öldürür. Zahiri görünüşü ilə bədheybət biri olan, qeyri-adi dərəcədə çox yeyən bu insan Koroğluya sevgi ilə yanaşır və onunla qardaş olmaq istəyir. O mərd və qorxmaz biridir.

"Koroğlunın qızılbaş Bəzirgənə "Ey Bəzirgən, ölmey dinge kirersin" yəni "Ey Bəzirgən, ölmədən dinə girərsən" deməsi çox maraqlıdır. Çünki monqollar müsəlman deyildir, qızılbaşlar və iranlılar isə şiə məzhəbinə mənsubdur. Koroğlunun mənsub olduğu türkmənlər

sünnüdür. Yəni qızılbaşın dinə girməsi lazım olan biridir. Məsələyə dini cəhətdən baxıldığında da qızılbaşın monqol əsgərləri, türk soylu qızılbaşlar, iranlılar yaxud bunların hamısının olmaq ehtimali vardır" (Özdemir, 2006: 104).

Türkmən "Koroğlu" variantlarında bəzən mifik qəhrəmanlar, bəzən isə hətta nağıl qəhrəmanları düşmən obrazı kimi iştirak edir. "Pəri küsən" qolunda Övəz Qaf dağına gedir və qara divlə döyüşür. Qara div mətnlərdə belə təsvir edilmişdir: "iki gözü çıraq kimi, başı dəyirman kimi, hər ayağı cumə camisinin dirəyi kimi, quyruğu üç gəz (*dirsəklə barmaq ucuna qədər olan uzunluq ölçüsü – N.Ə.*), qulağı iki gəz" (Görogly. III, 1996: 285). Div başdan ayağa qədər od saçır və boyu o qədər uzundur ki, sanki başı buludlardadır. Düşmən obrazı kimi div türkmən variantlarında bir çox mətnlərdə yer alır. "Övəz və Qırat" qolunda (Görogly II, 1996: 251) Əsən pəhləvanın həbəş divi ilə mübarizəsi təsvir edilmişdir. O öz boyundan dəfələrlə böyük olan divi tutub göyə qaldırarkən dizlərinə qədər torpağa batır.

Türkmən variantlarında düşmən obrazları yalnız fiziki olaraq deyil, həm də hiylə və fənd ilə uğur qazanırlar. Bu xarakterlər adətən qol gücü işləməyən yerlərdə son çarə olaraq meydana çıxır və çox vaxt istədiklərini əldə edirlər. Amma onların uğurları müvəqqəti olur və son sözü yenə Koroğlu və onun igidləri deyir. Belə hiyləgər xarakterlərdən biri də "Kəmpir" kolundakı qarıdır. Bu qarı cadugərdir və caduları ilə Koroğlunu və igidləri ovsunlayır, nəhayət, onlara yuxu dərmanı içirərək Qıratı qaçırmağa müvəffəq olur. Nişapur hakimi Balı bəyin göstərişi ilə Qıratı oğurlamaq üçün gələn qarının zahiri görünüşü də niyyəti kimi çirkindir: "ağzı ocaq kimi, çənəsi kürək kimi, dişləri çömcə kimi, boğazındakı damarları cadırın dəyənəyi kimi, saçları qısrağın quyruğu kimi, üzü-gözü qırış-qırış ustanın köhnə kürəyi kimi" (Göroglı, 1990: 442).

"Koroğlu" dastanın Azərbaycan variantlarında iştirak edən düşmən obrazlarına baxarkən onları aktiv və passiv olaraq iki qrupa bölə bilərik. Aktiv düşmənlər Koroğlunun savaş meydanlarında üzbəüz gəldiyi düşmənlərdir. Daha passiv düşmən isə paşalar, xanlar, bəylər, sultanlardır ki, onlar bir neçə istisna xaric, Koroğlu ilə üzü-üzə gəlmirlər. Türkmən variantlarında Xivə xanlığı ilə türkmənlər arasındakı mübarizələrlə yanaşı, Osmanlı İmperatorluğunun bu coğrafiyadakı dövlətlər ilə münasibətləri də dastanın süjetlərinə yadelli düşmən obrazları olaraq dərin təsir göstərmişdir. Xünkar xarakterinin türkmən variantlarında yer alması da bu səbəbə bağlıdır. Xünkar Osmanlı sultanı rolunda bir çox türkmən qolunda iştirak edir. Ümumiyyətlə, Osmanlı məhfumu türkmən variantlarında həmişə mövcuddur: "Koroğlu bəğ və Davut Sərdar" qolunda Koroğlunun toyunda Osmanlıdan qonaqlar iştirak edir. Koroğlu "Xarmandəli" qolunda Osmanlı karvanından xərac alır və s. (Görogly V, 1996).

"Koroğlu" dastanının türkmən variantlarında türk sultanı III Murad (1574-1595) dastanın əsas düşmən obrazı olan Xünkar şahın prototipi idi. III Murad Mustafa paşanın başçılığı ilə Zaqafqaziyanı, Güney Azərbaycanı özünə tabe etmək üçün onların üstünə yüz minlik qoşun göndərir. Bu hadisə Türkmən variantlarında da Xünkar şahın ordu başçısı Mustafa bəyin Koroğluya qarşı dəfələrlə yürüş etməsi şəklində əks olunmuşdur. Dastanda Xünkar şaha və onun ordusuna qarşı aparılan mübarizə-müharibə ümumiləşdirilərək göstərilir (http://www.turkmenkultur.com/menu/ml/t7/girish.html ).

"Koroğlu" dastanının istər Şərq, istər Qərb versiyasına bağlı, demək olar ki, bütün variantlarında xünkar iştirak edir. Türkmən variantlarında Koroğlunun babası Cığalı bəyin gözlərini xünkar çıxardır, əmisi Mömünü öldürür. Övəzi qaçıran, Çandıbelə qoşun yeridən, son qolda da Koroğlunu öldürtdürən yenə xünkardır. Maraqlı cəhətlərdən biri də budur ki, dastan boyu xünkar kafir və qızılbaş olaraq göstərilir.

Dastanda xünkarın ordu başçısı olan Mustafa haqqında maraqlı məlumatlar yer alır. "Övəzin xilas edilişi" adlı qolda xünkar Övəz haqqında eşitmişdir və onu ələ keçirmək istəyir. O bu işi Mustafa adlı ordu başçısına həvalə edir. Mustafa qoşunu ilə Çandıbilə hücum edir, ağır savaş olur və Övəz əsir düşür. Koroğlu və qırx igid Övəzi xilas etmək üçün libas dəyişərək xünkarın ölkəsinə gəlirlər. Bu vaxt Övəzin xünkara xidmət etmədiyi üçün asılacağını eşidir və

onu dar ağacından xilas edirlər. Yenidən qovhaqov başlayır, bu dəfə isə Mustafa tək başına onları təqib edir. Xünkar isə Şahsepit adlı ordu başçısını ordusu ilə onların dalınca göndərir. Mustafa Koroğlunun dəstəsinə çatır və onlar təkbətək vuruşurlar. Koroğlu böyük çətinliklə Mustafanı məğlub edir, amma onun mərdliyi qarşısında düşmənliyi unudur və onlar dost kimi ayrılırlar. Şahsepit geri qayıdan Mustafanı tutur əl qolunu bağlayıb yanında götürərək Koroğlunun dəstəsini təqib edir. Koroğlu Mustafanın təkrar onun dalınca gəldiyini görür və buna çox qəzəblənir. Böyük bir savaş olur və xünkarın ordusu darmadağın olur. Savaş qalıqları arasında Mustafanın meyidini əl-qolu bağlı görən Koroğlu buna çox məyus olur və onu dəfn edir.

"Sərvican" qolunda da yenə Şahsepit haqqında belə məlumat verilir: Çandıbildə gözü olan xünkar bir ordusunu Şahsepitin rəhbərliyi ilə basqına göndərir. Koroğlu bu vaxt ovdadır, Şahsepit bunu da fürsət bilib Çandıbili talan edir və geri qayıdır. Çandıbil qalasında olan Övəz Qırata minir və igidlərlə onu təqib edir. Böyük bir savaş olur və Övəz düşmənə əsir düşür. Qırat əsirlikdən qaçır və Çandıbilə gələrək Koroğluya xəbər çatdırır. Koroğlu tərki-libas olaraq xünkarın məmləkətinə gedir. Xünkarın qızı Sərvican əsirlikdə olan Övəzə aşıq olmuşdur. Sərvicanın köməyi ilə Övəz əsirlikdən azad olunur və onlar birlikdə Çandıbilə qayıdırlar.

Koroğlu "Koroğlu və Balı bəy" qolunda Xivə xanlığı ilə, "Qırx minlər" qolunda isə Osmanlı İmperiyası ilə mübarizə aparır. "Qırx minlər" qolunda xünkarın qoşunları Çandıbili mühasirəyə alır və Koroğluya bəzi şərtlər irəli sürür. Bu şərtləri qəbul etməyən Koroğlu igidləri ilə savaşa atılır, qanlı bir savaş olur. Lakin xünkarın ordusunda qılınckəsməz, oxbatmaz on yeddi div kimi iri əsgər önə çıxır. Bunları baxşı belə təsvir edir: "boyunları minarə kimi, kəllələri günbəz kimi, ağızları ocaq kimi, dişləri beş abbasılıq pul kimi, saqqalları kəllə urlan söyüt kimi" (Görogli. Türkmen gahrımançılık eposı, 1990: 410). Koroğlu bu bədheybətlərin qarşısına özü çıxır, amma heç nə edə bilmir. On yeddi əsgərdən biri Koroğlunu Qıratın üstündən tək əli ilə alır, xünkar tərəfə götürür. Belə bir vəziyyətdə çarəsiz qalan Koroğlu pirindən kömək istəyir. Piri Həzrət Əli gəlib bu əsgərə bir zərbə vurur və Koroğlunu onun əlindən alır. Piri toxunduqdan sonra bu əsgəri artıq qılınc kəsir və Koroğlu onu qılıncı ilə ikiyə bölür. Bunu görən yerdə qalan on altı əsgər qaçır və beləliklə, xünkarın ordusu darmadağın olur.

**Nəticə**

"Koroğlu" dastanının obrazlar sisteminə nəzər salsaq çox rəngli, çox çeşitli, bəzən bir-birinə dabandabana zidd xarakterlərlə qarşılaşırıq. Dastanın əsas qəhrəmanı Koroğlu və onun atı Qıratdır. Epik məkan olan Çənlibellə birlikdə bu üç obraz dastanın bütün variant və versiyalarında dəyişməz olaraq qalır. Koroğlunun silahdaşları, dəliləri və onlarla qarşı qarşıya gələn düşmən obrazları dastan boyu mübarizə və savaş vəziyyətindədirlər. Dastanda düşmən obrazlar yadelli, yerli, gizli və ya mistik olsun həmişə məğlub olurlar. Bu mübarizədə Koroğlu istər qol güçünə, istər fəndgirliklə həmişə qalib gəlir. Türkmən variantında mifoloji layların dərin olduğu qədim mətinlərdə düşmən obrazı bəzən div, bəzən cadugərdir. Azərbaycan variantlarında düşmən obrazı daha real və şəffaf təsvir edilmişdir. Hər iki variantda Ərəb Reyhan obrazı yer almış, bir çox qarşılaşmalardan sonra məğlub və məhv edilmişdir. Bundan başqa, düşmən obrazları olaraq dastan boyu tarixi hadisələrlə səsləşən şahlar, sultanlar, sərkərdələr və s. şəxslərin obraşlaşmış prototiplərinə də rast gəlinir. Bu da "Koroğlu" dastanının təşəkkül tarixinin qədimliyinə və gəldiyi yolun uzunluğuna bir işarədir.

**Qaynaqlar**

Abbaslı, İ. (2009). *Folklorşünaslıq axtarışları.* C. 2. Bakı: Elm nəşriyyatı.

Aslan, M. (1997). *Köroğlu Destanının Türkmen Versiyonu Üzerinde Mukayeseli Bir İnceleme*. Yayınlanmamış Doktora Tezi, İzmir.

Garriyev, B. (2007). *Türk Dünyasında Köroğlu Anlatmaları* / Çev. F. Türkmen, M. Duranlı, F. Rahmankul. Ankara: Türk Dil Kurumu Yayınları.

*Göroglı. Türkmen gahrımançılık eposı* (1990) / Taỳỳarlan B. Məmmətyazov, A. Durdieva, K. Seyyutmiradov. Aşgabat: Türkmenistan Neşriyatı.

*Görogly. Türkmen Halk Dessany* (1996) / II cilt. Taỳỳarlan Nurmemmet A. Ankara: Bilig Yayınları.

*Görogly. Türkmen Halk Dessany* (1996) / III cilt. Taỳỳarlan Nurmemmet A. Ankara: Bilig Yayınları.

*Görogly. Türkmen Halk Dessany* (1996) / V cilt. Taỳỳarlan Nurmemmet A. Ankara: Bilig Yayınları.

*Görogly. Türkmen Halk Dessany* (1996) / IV cilt. Taỳỳarlan Nurmemmet A. Ankara: Bilig Yayınları.

İnan, A. (2000). *Şamanizm: Tarihte ve Bugün*. Ankara: Türk Tarih Kurumu Yayınları.

Nəbiyev, A. (2006). *Azərbaycan xalq ədəbiyyatı. II hissə (Orta əsr və yeni dövr folklor yaradıcılığı).* Bakı: Elm nəşriyyatı.

Özdemir, A. (2006). Köruğlı Men Bezergen Destanındaki Özel Adlara Dair. *Bilig.* Bahar. S. 37, 91-114.

Roemer, H.R. (1990). The Qizilbash Turcomans: Founders and Victims of the Safavid Theocracy. *Intellectual Studies in Islam* / ed. M. M. Mazzaoui, V. B. Moreen. Utah, 27-39.

Şahin, H.İ. (2012). Kadı Abdısetdar Cenknâmesi Üzerine Bir İnceleme. *Hacettepe Üniversitesi Türkiyat Araştırmaları Dergisi,* Güz, S. 17, 219-238.

Yıldırım, D. (1998). Koroğlu Destanının Orta Asya Rivayetleri. *Milli Folklor.* Aralık; S. 4,10-11, 26.

Jirmunskiy, V. (1974). *Tyurkiskiy qeroiçeskiy epos: izbrannıe trudı.* Leninqrad: Nauka Leninqradskoe otd-nie. - Жирмунский, В. (1974). *Тюркский героический эпос: избранные труды*. Ленинград: Наука Ленинградское отд-ние.

**İnternet Kaynakları**

Garryew, B.-Mämmetýazow, B. "*Görogly*" Eposy, http://www.turkmenkultur.com/menu/ml/t7/girish.html